# Durnalar, geri qayıdın...



## Barat Vüsal

AYB Qazax filialının sədri,
Əməkdar İncəsənət Xadimi

(esse)

*Bahar gəlsə də, durnalar görünmür.*
*Hara getdi bunlar?*
*Niyə gəlib çıxmırlar?*
*Yoxsa 'Durnaları dönməz oldu dağların'? (M.Araz)*
*Hər nəsə! Bilmirəm!*
*Bircə onu bilirəm ki, bir gün başının üstündən durna keçmədiyini görəndə mənim kimi olanların elə durduğu yerdəcə bağrı çatlayacaq...*

***

*Göyü durnalarsız təsəvvür eləmək mümkün deyil, durnaları göysüz.*
*Bir-birbirlərindən ötrü yaradılıblar.*

***

Mən el inanclarına çox inanıram, uşaq olduğum vaxtlarda eşitmişdim ki, durnaları görəndə bir qara daşı ağzı üstə çevirsən durna qatarı pozulur.

Mən də az çevrilməmişəm o qara daşı. Doyunca durnalara baxmaq, doyunca səslərini eşitmək üçün.

Durnalarsa xətrimi qırmayıblar, hər dəfə mən qara daşı çevirincə dağılışıblar. Yox, əslində ayaq saxlayıblar, sanki mənimlə hal-əhval tutublar.

"Əskidən də bu inamda olublar, indi də inanmalıyıq ki, göydən durna qatarı uçan vaxt daşa toxunmaq olmaz, yoxsa o durnanın səfi pozular." (C.Bəydili)

Mirvarid Dilbazi durnalarla bağlı inanclara mühüm önəm verərmiş.

Bir şeirindən məlum olur ki, qızlar uşaq vaxtı qırmızı bir lenti düyünləyib durnaların gəlişini gözləyərmişlər. Durna səsi gəlincə hansı düyün açılsaymış, o qızın baxtı açılarmış, ürəyində tutduğu hər hansı bir arzusu yerinə yetərmiş, ərə gedərmiş və s.

***

*Durnalar adi quşlar deyillər.*
*Kəramətli dərvişlər, müqəddəs övliyalardı.*
*Quş cildində!*
*Onların xətrinə dəymək olmaz!*
*Hüseyn Arifin bir babası varmış. Bir gün tüfəngini götürüb 'Bir onu sınaqdan keçirim deyə, qərib bir durnanı tutdu gülləyə."*
*Bununla da kitabı bağlandı.*
*Baxtı döndü, yığvalı yatdı. Bir atışmadan sonra tutuldu, qolları arxasından çatıldı, zindana atıldı.*

Daha sonra "Sibirdən, sürgündən gəldi sorağı."

Bir gün geri dönsə də heç zaman işləri düz gətirmədi. Əcəl atını mindi və yıxılıb öldü. Anası Zal qızı Gülnaz bu ölümün səbəbini bədahətən çəkdiyi bir bayatıda belə açıqladı:

**Eləmi ahu tutdu,**
**Düzləri ahu tutdu.**
**Balamı ox tutmazdı,**
**Durnanın ahı tutdu**

.

Kim bilir,bəlkə də o kişi nə zindana düşəcəkdi,nə Sibirə sürgün olunacaqdı. Vurduğu Durnanın ahı olmasaydı!

Günahın ahı var...

Ahın günahı yoxdu!

Hamı Ədalət gəzir, Ədalət axtarır. Buyurun, bu da Ədalətin daşı, tərəzisi.Tərəzinin bir gözündə bir bəndənin günahı, o biri gözündə Durnanın ahı!

Bu Ahın "Günahı!"

Bu da günahın ahı...

Nə deyir bizə?

"Bir də Durnaya güllə atmayın!"

"Bir də durnaların səfini dağıtmayın!"

"Qoymayın Göy üzündən azalsın, yoxa çıxsın durnalar!"

Onsuz da Durna ondan tel umanlara öz telindən tullayır.Özü də tam vaxtında!

...Ziyadxanoğlu xan Kərəmin haqq aşiqi olduğu təsdiq olunsa türk paşası Əslini Qara keşişin əlindən alıb həmişəlik ona verəcəkdi.

Göydən durnalar keçirdi.

Paşa dedi ki,Kərəm,o durnaları yolundan saxlaya bilsən,sənə istədiyini verəcəm.

Kərəm göylərə necə baxdısa durnalar nəinki geri qayıtdı hələ bir üstəlik,öz tellərindən ərmağan da ayırıb ona göndərdilər.

Paşa öz vədini yerinə yetirməyi qərar verdi.

***

...Dünyada elə övliyalar olub ki,lazım gələndə təğyir-libas olub öz cildlərini dəyişiblər.



Əhməd Yəsivinin Haqq aşiqi olduğunu yoxlamaq üçün 9 övliya durna cildinə girib xəbər yolladılar:"Əhməd,səninlə görüşmək istəyirik.

Filan yerə,filan təpənin üstünə gəl."

Əhməd Yəsəviyə çox şeylər Haqdan əyan olduğu kimi bu ismarıcın da mənası aydın oldu.O,dərhal Durna cildinə girdi,deyilən təpənin başına qonmuş durnaların yanında yerə endi.

Hamısı əvvəlki cildlərinə qayıtdılar.O durna cildinə girmiş övliyalar bu durna cildinə girmiş Əhmədin doğurdan da Haqq aşiqi,kəramət sahibi olduğunu gördülər...

***

*İsa Muğanna Akstafadakı evində dincəlirdi.Payıza doğru gedirdik.Olandan keçmişdən söhbət edirdik.Gecə təxminən 11-12 radələrində durna qaqqıltısı eşitdik.Köçürdülər.*

*Daha bir möcüzə baş verdi.Durnalar böyük yazıçımızın evinin üstünə çatanda,yollarından dayandılar,başladılar evin başına dolanmağa.Bir...beş...bəlkə də on dəfə 'Bu nədir'söylədikdə İ.Muğanna bığaltı qımışdı:*

*-Mənimlə vidalaşırlar.*

*O, düz deyirmiş!*

*Bir daha həminki görüşdən sonra o da qayıdıb doğma yurd-yuvaya gəlmədi!*

*Hüseyn Arif öləndə də durnalar gəliblər, qəbrinin başına dolanıb sonra yollarını davam ediblər.*

***

Durna obrazı,durna möcüzəsi nağıl və dastanlarımızda da öz təcəssümünü yetərincə tapmışdır. Nağıl qəhrəmanlarından birinin"qanlı köynəyi"ni durnalar tapıb öz sahiblərinə çatdırmamışdılarmı?Nahaq tökülən,xəlvətdə axıdılan qanın batmasına (batırılmasına)durnalar göz yummamışdılar,göz yuma bilməmişdilər,yadınızdadırmı?

Səməd Vurğunun qulağı da durna qaqqıltısıyla doluymuş.Onun da qulağına gecənin gırt yarısında "Gecikmiş durnanın səsi gəlirdi."

Bakıda tələbəydim.

Gecə təxminən 1-2 radələriydi.Qulağıma durna səsi gəldi,götürüb bir şeir yazdım.Son bəndi belədi:

**Gecə yatmamışdım,səsiniz gəldi,**
**Aman,qaqqıltınız necə gözəldi.**
**Özünü qanadlı bir durna bildi,**
**Uçdu sizin ilə Barat durnalar!**
Necə uçmaya bilərdim ki?!

Vaqiflərdən, Vidadilərdən, Zakirlərdən üzü bəri uçub gələn durnalara necə qoşulmamaq olardı?

Necə Aşıq Veysəl kimi sazını sinənə basıb deməyə bilərdin: "Sazım, durnadanmı aldın səsini?"

Baxın, böyük türk ozanı saz səsini durna səsilə müqayisə edirmiş.

İsa Muğanna isə Durnanın səsini OdƏrÜn"-Həqiqətin səsi, Allahın ünü" adlandırırdı...

Bilənlər bilir, durnaların səsi qəribanə səsdir, ilahi səsdir. Durnalar həm də etibarlı dostdurlar, tərəfdaşdırlar. "Durna, gedər olsan bizim ellərə" –deyə durnalardan doğma ellərə ismarıc yollayıblar. Deyiblər ki, bəzi insanlardan yenə siz gözlü-qulaqlısınız, etibarlısınız. "Göynən gedən beş durnalar, bizim ellər yerindəmi?!"

Fikir vermişəm mən də Hüseyn Arif həngi bir şeyə: "Durnalar nə üçün gecə uçurlar." Sabahı salamat açmaq üçünmü?

Belə getsə durnalar gecələr də uça bilməyəcək. Onda sabah açılacaqmı görəsən?

Koroğlu dəliləri "Durna teli" səfərinə gedirdilər, papaqlarına durna teli taxırdılar. Onlar da durnalaşırdılar. Durna düzülüşü kimi uçbucaq şəklində-ox kimi düşmənin üstə uçurdularbağrına saplanırdılar.

Deyirlər ki, durnalar uçbucaq şəklində düzülüb uçmasalar çox uzağa uça bilməzlər. Nəinki mənzildənmənzilə çata-çata, hətta göydəcə uçduqları halda yata-yata...

Deyirlər ki, Köç zamanı Durna başçısı əmr edir ki, "Aşağı enək, bir az nəfəsimizi dərək, dincələk. Bu vaxt durnaları qəfil düşmən hücumundan qorumaq üçün keşikçilər təyin olunurlar. O durnaların (keşikçilərin) hər biri uca bir daşın üstə qonub, tək ayağı üstə durub başlayırlar "karvan"a göz olmağa.

Niyə tək ayağı üstdə, eləmi?! Yatmamaq,yata bilməmək,narahat vəziyyətdə qalmaq üçün.Tək ayaqlarının altına-ovuclarına balaca bir daş da qoyub dayanırlar.

Əgər birdən yuxu bassa,daş ayaqlarının altından qaçıb"hay-haray"-salıb,onları oyatsın,deyə "Hara yatırsınız,ordunu bada verərsiniz!"-deyə!

Durna"konstitusyası"na,durna qanununa baxın,sən Allah!Biz də elə bilirik ki,sıradan bunlar da adicə quşlarmışlar.

Deyirlər,durnalar dənizlər üstündə keçəndə "Əldən tutmaq Əlidən qalıb"-misalına da yaman əməl edirlər.Qaranquşları qanadları üstünə alırlar.

Bütün bunlarla yanaşı sən demə,durnaların da mərdi,namərdi varmış.Qara Durna kimi.Sabir Rüstəmxanlı bu haqda yazır ki,"Yumurtadan çıxan kimi bir-birinin üstünə cuman qara durnanın nəsli kəsilmək üzrədir."

Və şair qara durnalara bir şeir də həsr edib.Deyib ki:

**Aman Durna,dimdiyini öz başında sınama,**
**Sən gücünü yurddaşında sınama!**

Sabir Rüstəmxanlı ürəyimdən xəbər verən bir mövzuya toxunub.Qara durnaların bir-birinə qənim kəsilməsi qlobal bir təhlükə kimi onu çox haqlı narahat edib.

Bu qorxu hissi mənim də qəlbimi son zamanlar çox bürüyür.

Yadımdadı, həmişə yazda,payızda durnalar köç edəndə elə bil buludlar utandıqlarından qaçıb gizlənərdilər.

**Göylər durna-durna buludlanardı.**
**Göylər bulud-bulud durnalanardı...**

İraqda,Suriyada gedən müharibələr də çox güman ki,durnaların azalmasında öz mənfi təsirini göstərməmiş deyil.İlk gənclik illərindən ürəyimə nəsə damıbmış.Durnaların getdikcə azalacağı...nə vaxtsa bəlkə də yoxa çıxacaqları...Yoxsa yazardımmı ki:

**Ay qərib durnalar,bir lələk verin,**
**Baharın ətrini mən alım ondan.**
**Yaman kövrəlmişəm, bir ürək verin,**
**Döyünsün siz geri qayıdanacan!**

Bununla ürəyim soyumayıb, yazmışam ki:

**Durnalar!Durnalar, geri qayıdın,**
**Vallah,ölən olar həsrətinizdən!**

Bu həsrətin acısını, qlobal qorxusunu Çingiz Aytmatov hamıdan qabaq duyubmuş:

"Mən durnalarla uçuram...

Özüm də onlardan biriyəm. Qaranlıq gecələrdə ulduzlar sarbanım, gündüzlər zəmilər, şəhərlər üzərindən uçuram.

Xəyyalara dala-dala...

Uça-uça göz yaşı tökə-tökə.

Hə olsun durnanın göz yaşlarından?!

Silin üzünüzdən!.. Amma yenə də, yenə də, yenə də ey insanlar, iraq olsun sizlərdən qeyri-insani bəlalar! İraq olsun söndürülməz yanğınlar, qarşısı alınmaz qırğınlar, iraq olsun yuyulmaz günahlar...

İraq olsun ey insanlar, sizlərdən müdhiş fəlakətlər!"

Ç.Aytmatovun bu duasından fikrim-hissim aralanmamış durnalar haqda xalq mahnılarındakı qorxular kəsdi başımın üstünü:

**Ay havada uçan durna,**
**Bizi qoyub qaçan durna!**
**Get, xoş getdin, səfa gəldin,**
**Gələcəksən haçan, durna?**
**Üç telli, dörd telli, beş telli durna.**
**Sən haralısan, haralı, durna,**
**Ovçu əlindən yaralı durna!**

...Yaxın qohumumuz rəhmətlik Katibin Kürün Otayından- Ceyrançöllündən tapıb gətirdiyi yaralı bir Durna bu saat da gözümün qabağındadır. Qanadının biri qırılıbmış. Ona atılan qırmadan. Hər dəfə durnalar gəlib keçəndə özünü oda-közə vururdu, istəyirdi ki, onlara qarışsın, uçsun. Qanadını açırdı, uça bilməyəndə gözləri qan çanağına dönürdü ağlamaqdan.

***

*Min ildi durnalar qaqqıldaşa-qaqqıldaşa uçurlar. Göyləri darıxmağa qoymurlar.*

*Yerlərdən bizi göyə baxmağa (bizi göyə qalxmağa!) məcbur edirlər. Qaqqıldaşdıqca göylərin qulağı Quran səsi eşidir. Qaqqıldaşdıqca bizi də göylərə, durna olmağa səsləyirlər!*

*Dünyanın ən çətin işlərindən biri də Durna olmaqmış!...*

*'Mən yuxuda Durna oluram gecələr" deyəndə Nigar Rəfibəyli yəqin ki, durnaların sayını artırmaq haqda düşünürmüş.*

***

Bəlkə də bu yazını yazmayacaqdım. Mənim də az qala durna olmaq arzum, durnadan yazmaq həvəsim hardan yarandı, bilirsinizmi?!

Şair, rəssam, memar dostum Məmməd Dəmirçioğlunun başdaşında-bir barelyefdə Durna şəklini görəndən!

Bu Durna buraya hardan uçub gəlmişdi belə? Yadıma gəldi ki, uşaqlıqda onun ilk dəfə çəkdiyi şəkil Durna şəkli olub.Kömürlə çəkibmiş onu köhnə evlərinin eyvanındakı divara...

Həmin şəkli çəkəndə guya uşaqlıq edibmiş. Əslində böyüklük edib!

Məmməd Dəmirçioğlunun məzarını ziyarətdən evə qayıdanda həmin durnaya oxşayan durnaları bir daha seyr etdim.

Çəkib mənə bağışladığı portretimdə başımın üstündə qatarlaşıb "uçurdular".

Bir daha başa düşdüm ki, o da nə şairmiş, nə rəssammış, nə də memar!

Durnaymış!

Vaxtında görüb tanımamışıq!

P.S Dini kitablarda deyilir ki, dünyanın sonu-Məhşər günü İsrafilin suru səslənəndə başlanacaq.

Digər bir fikrə görə, Məhşərin ilk əlamətlərindən biri bal arılarının qırılması olacaq.

**Mən düşünürəm ki:**
**Ürəyimə yatan ömür dediyim,**
**Durnanın ömrüdü,durnanın ömrü.**
**Dünyada son durna qalana kimi,**
**Dünyanın ömrü var, dünyanın ömrü?!**